# 400 çadırla qurulan Dünya Dövləti-Osmanlı İmperatorluğu



Elşən Mirişli

Gəncə şəhəri, tarixçi

(əvvəli ötən sayımızda)

## II Mahmudun Avropa siyasəti

***Sultan II Mahmud taxta çıxdığı əsnada Avropada Fransaya qarşı mübarizə davam edirdi və Fransa yönümlü siyasət aparan Osmanlı imperiyası bu səbəblə Rusiya və İngiltərə ilə müharibə şəraitində idi (1806).Bu vəziyyətdə İngiltərə ilə 9 yanvar 1809-cu il tarixli Sultaniyyə sülhü, Rusiya ilə isə 28 may 1812-ci il tarixli Bükreş sülhü ilə başa çatdı. Rusiya ilə bağlanan sülhə əsasən,bölgədə ruslara mühüm imtiyazlar verilmiş,Bessarabiya torpaqları itirilmiş, rusların Qafqazdakı işğalçı siyasəti tanınmış, ən əsası isə serblərə muxtariyyət verilmişdi.Bununla birlikdə Napoleonun Moskvaya səfəri (1812) və Avropada tarazlığın pozulması bu sülhün şərtlərinin icra edilməsini bir müddət gecikdirdi. Ancaq Rusiya tərəfinin məsələni yenidən gündəmə gətirməsilə 1817-ci ildə serblərə muxtariyyət verildi.***

Digər tərəfdən 1821-ci ildə başlayan yunan üsyanı böyüyərək dövlətlər arası bir məsələyə çevrilmişdi. Avropadakı Türk əleyhdarlığını gücləndirən bu üsyan Mehmed Ali Paşanın uğurlu hərbi əməliyyatı ilə yatırılsa da, məsələyə xarici müdaxiləni qaçınılmaz etmişdi. Navarində yerləşən Osmanlı-Misir donanması ani bir basqınla yandırıldı (20 oktyabr 1827) və Fransa Moreya bölgəsinə ordu yeritdi.7 oktyabr 1826-cı il tarixli Akkirman sülhü ilə istədiyi bütün hüquq və imtiyazları ələ keçirən Rusiya bu dəfə də yunan məsələsini bəhanə edərək Osmanlı İmperatorluğuna qarşı yenidən müharibə elan etdi. Balkan yarımadasında qısa zamanda irəliləyən rus ordusu Ədirnəyə qədər gəldi və burada bağlanan sülhlə (14 avqust 1829) Moreyanı və bəzi adaları özündə birləşdirən Afina mərkəzli kiçik bir yunan dövlətinin yaradılmasının yolunu açdı.

## Misirdə Yeniçeri üsyanı

***Sultan II Mahmudun 16 iyun 1826-cı ildə Yeniçeri ordusunun ləğvi haqqında fərman verməsi ilə Əlcəzairdə Dayılar dövrü yaşayan (1671-1830) türk ordusu və Misirdəki Türk ordusu ilə dövlətin ordu təşkilatına endirilən ağır zərbə və qırılma nöqtəsi oldu.Yeniçeri Ordusu islahat aparılaraq modernləşdirilmək yerinə büsbütün ləğv edilmişdi. Evlənmələri belə yasaq edilən bütün həyatını dövlətin ayaqda durmasına sərf edən imperatorluğun xüsusi təyinatlı ordusu bir ağılsız fərman ilə ləğv edilmişdi.Bütün Avropa və Rusiya bu fərmanı sevinclə qarşıladı.Artıq Dünyanı titrədən bu əzəmətli Türk imperatorluq ordusu II Mahmud tərəfindən məhv edilmişdi.***

Sultan II Mahmudun Yeniçeri ordusunu ləğv etməsi Misirdəki Türk ordusu ilə dövlətin siyasi mübarizəsinə səbəb oldu. Misir əyalətindəki Osmanlı valisi Mehmed Ali Paşanın Osmanlı İmperiyasından ayrılması qaçınılmaz oldu. Misir qüvvələri Konyaya qədər uğurla irəliləməsi,burada sədrəzəm Rəşid Mehmed Paşa idarəsindəki yeni Sekban-ı Cədid Osmanlı ordusunun Yeniçerilərə məğlub olması (21 dekabr 1832) və üstəlik əsir düşən sədrəzəmlə birlikdə Misirdəki üsyançı Türk ordusunun Kütahyaya gəlməsi (2 fevral 1833) Sultan Mahmudun qarşılaşdığı ən böyük siyasi təhlükələrdən biri oldu. Xüsusi bir dəvət yollanılmadan 1833-cü ilin fevralında rus ordusu və donanması Beykoza gəldi.Nəticədə Kütahyada toplanan tərəflər razılığa gəldilər və Sultan Mahmud 1516-1517-ci illərdə Misirdə ələ keçirilən bütün torpaqları Mehmed Ali Paşanın idarəsinə verməyə məcbur oldu.8 iyul 1833-cü ildə Rusiya tərəfi ilə ittifaq bağlandı və bununla da Rusiya İstanbul boğazı üzərində mühüm imtiyazlar və digər Avropa ölkələri qarşısında üstünlük qazandı.1833-cü ilin sentyabrında Çexiyada toplanan Avstriya və Rusiya hökmdarları,Osmanlının Avropadakı varlığına son qoyub,burada yeni xristian dövlətlərinin qurulması barədə razılığa gəldilər.

24 iyun 1839-cu ildə Nizibdə meydana gələn son hesablaşma Misirdəki Yeniçerilərin yeni Osmanlı imperatorluq ordusunu məğlub etmələri ilə başa çatdı.Osmanlı tərəfini seçən İngiltərənin hərbi müdaxiləsi ilə Misir məsələsi həll edildi.Mehmed Ali Paşa ağır şərtləri qəbul etməli oldu və yenidən Osmanlı tabeliyinə verilən Misir hakimliyi onun və onun vərasətindəki övladlarının ixtiyarına verildi (1840).

## Mustafa Rəşid Paşa

***Mustafa Rəşid Paşa 13 mart 1800-cü ildə İstanbulda doğulub. Atası II Bayezid (1481-1512) Külliyesi vəqfləri ruznaməçisi Mustafa Əfəndidir. Mustafa Rəşid Paşa böyük bir dövlət adamı olmuşdur.Bu 'böyük'lük sözü daima adının yanında anılmışdır.Osmanlı imperatorluğu içində ən böyük vəzirdir.Əvvala,bir çox tanınmış vəzirlər yetirmiş, görkəmli xidmətləri ilə adını əbədiləşdirmişdir. Mustafa Rəşid Paşa mənsub olduğu dövlətin teokratik kökünü dəyişən bir islahatçıdır.Ərəbcə, farsca və fransızca öyrənmişdi.***

Gəlib-gedən vəzirlər içində yalnız o, "böyük" adını qazanmışdır.

İmperatorluqda teokratik sistemin böyük təhlükəsini ilk görən o, olmuşdur.

Dövləti uçuruma aparan bu sistemi ilk dəfə o duymuşdur. Dövlətin daxilində islahatın gərəkliyini lazım bilmişdi.Mustafa Rəşid Paşanın "İslahat fərmanı" yeni bir "Modern"dövlət anlayışını gətirmişdi. Mustafa Rəşid Paşa Spartalı sədrəzəm Ali Paşanın himayəsində yetişmişdir.Tez bir zamanda dövrünün padşahı II Mahmudun diqqətini çəkmişdi. 28 sentyabr 1846 -28 aprel 1848-ci illərdə Osmanlı İmperatorluğunda sədrəzəm olmuşdu. Mustafa Rəşid Paşa Tənzimatın memarı və dövrünün ən önəmli dövlət adamlarından biridir. Sultan Abdülmecit dönəmində 6 dəfə olmaq üzrə toplam 7 il 1 ay Sədrəzəm olmuşdu. Ayrıca 4 dəfə Xarici işlər naziri,Ədirnə valisi, Paris və Londonda Osmanlı imperatorluğunun səfiri olmuşdu.II Mahmudun ölümündən sonra yerinə keçən Sultan Abdülmecit tərəfindən də eyni sevgi ilə qarşılanmışdı. Abdülmecit Mustafa Rəşid Paşa tərəfindən hazırlanan "Tənzimat fərmanı" təsdiqləmişdi. Sədrəzəmliyi 1846-cı ildən başlanmışdır.Vəfatına qədər yeddi dəfə bu vəzifəyə gətirilmişdir.Siyasət sahəsində də çox xidmətləri olmuşdur.

Mustafa Rəşid Paşanın böyük əsəri "Tənzimat fərmanı"nın mahiyyəti Osmanlı Dövlətində Tənzimat dövrünü açan bir fərmandır.Bu fərman Gülxanədə oxunmuşdur.Buna görə də "Gülxanə xətti humayunu " deyə anılır.

Tənzimat manifestini hazırlayan Mustafa Rəşid Paşa müəyyən mənada istədiyinə nail olmuşdu.Elə bir mexanizm formalaşdırmışdı ki ,sultan hakimiyyətini köklü şəkildə sarsıtmadan xeyli məhdudlaşdırırdı.

***Burada sultanın nümayişkarənə şəkildə edam və əmlakın müsadirə edilməsi hüququndan imtina etməsi ilk növbədə,Mustafa Rəşid Paşanın qələbəsi idi.Bu hüquq nazirlərə verilsə də,nazirlərin vəzifə fəaliyyətləri üçün yeni qanunlar hazırlanırdı ki,onlar bu sahədə özbaşınalıq edə bilməsinlər və məsuliyyət qarşısında olduqlarını nəzərdən qaçırmasınlar.***



***Mustafa Rəşid Paşanın dövründə polis hakimiyyətinin də forması dəyişdirildi.Belə ki,polis ölüm hökmü vermək hüququndan məhrum edilirdi.Polis bu sahədə təcili,yaxud operativ fəaliyyətdən məhrum edilirdi.Bu onunla izah edilirdi ki,polis istədiyi vəziyyətlərdə məhkəmənin qərarı olmadan hər hansı bir vətəndaşa dair həbs qəti imkan tədbirləri həyata keçirə və ölüm hökmü çıxara bilməzdi.Osmanlı imperiyasında XIX əsrin birinci yarısında tətbiq olunan bu demokratik prinsiplər bir sıra Avropa dövlətlərində XX əsrin ortalarında tətbiq olunmağa başlandı***

Bu fərman 3 noyabr 1839-cu ildə Gülhane parkında Mustafa Rəşid Paşa tərəfindən oxunaraq elan edildi.Bu yeni bir dövrün açıldığı tarixdir.Fərman vətəndaşların ana haqlarını təminat altına aldı.Bu fərmandan sonra məhkəmələrin qərarı olmadan heç bir adam edam oluna bilməzdi. Əvvəllər olduğu kimi daha padşahın hüququ yox idi ki,vəzirlərini və sairəni istədiyi vaxt edam etdirsin. Qanunsuz vergi, vətəndaşların arasında dini və irqi fərqlər ləğv edildi.

Mustafa Rəşid Paşanın dövründə polis hakimiyyətinin də forması dəyişdirildi.Belə ki,polis ölüm hökmü vermək hüququndan məhrum edilirdi.Polis bu sahədə təcili,yaxud operativ fəaliyyətdən məhrum edilirdi.Bu onunla izah edilirdi ki,polis istədiyi vəziyyətlərdə məhkəmənin qərarı olmadan hər hansı bir vətəndaşa dair həbs qəti imkan tədbirləri həyata keçirə və ölüm hökmü çıxara bilməzdi.Osmanlı imperiyasında XIX əsrin birinci yarısında tətbiq olunan bu demokratik prinsiplər bir sıra Avropa dövlətlərində XX əsrin ortalarında tətbiq olunmağa başlandı.

Mustafa Rəşid Paşa 7 yanvar 1858-ci il tarixində 57 yaşındaykən İstanbulda öldü.Tənzimat dövrü 1839-cu ildən 1878-ci ilə kimi-39 il sürmüşdür. II Əbdülhəmid hakimiyyəti təkbaşına əlinə alıncaya qədər Tənzimat dövrü davam etdi.Bu tarixdən sonra yenə də dövlət Saraydan idarə edilmişdir.

## Sultan Abdülmecid

***Sultan Abdülmecid 31-ci Osmanlı sultanı və 110-cu İslam xəlifəsidi. Səltənəti dövründə Tənzimat fərmanı elan edilmiş,bu səbəblə Osmanlı tarixində Tənzimat padşahı olaraq anılır.Son 4 Osmanlı sultanının (Sultan Murad, Sultan Əbdülhəmid, Sultan Rəşad və Sultan Vahidəddin) atasıdır. Hakimiyyətdə olduğu illər 2 iyul 1839-26 iyun 1861-ci illərdi.***

***Sultan Abdülmecid 25 aprel 1823-cü ildə İstanbulda doğulmuşdu. Atası II Mahmud, anası Bəzmialəm Sultandır.Təhsil və tərbiyəsinə önəm verilmiş, əsl Avropa şahzadələri kimi böyüdülmüşdür.Mükəmməl səviyyədə fransızca öyrəndi.1 iyul 1839-cu ildə atası II Mahmudun vəfatının ardından 17 yaşında taxta çıxdı. Əcnəbi səfirliklərə isə Sultan Mahmud səltənətində başlayan yenilik və islahatların davam ediləcəyi barədə fərmanlar göndərirdi.***

(ardı var)